«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 20 noyabr (Çərşənbə günü) tarixli 45-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN


Çaharşənbə, 13 səfərülmüzəffər sənə 1337. 20 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.


## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Qafur Rəşad Mirzəzadə kamaliyə's və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz sevgili qardaşı, müəllim və mühərrir **Ağahəsən Mirzəzadənin** ölüm xəbərini qövmaqrəba və dostaşnalarına xəbər verir. Təşyiyi-cənazə [cənazənin yola salınması] bu gün çaharşənbə [çərşənbə] günü sübh saat 10-da Nijni Təzəpirski küçədə 25 nömrəli evdən götürülüb Təzəpir məscidinə aparılacaqdır.

## ELAN

Bakı valisi Məhəmməd Fəthi bəy vəzifə icrası üçün quberniya qəzalarına getdiyinə görə, Bakı quberniya və sabiq qradonaçalstvası daxilindəki məsələlərdən naşi [ötrü] vali baş müavini Müseyib bəy Axıcanov və sabiq baş müavin işlərindən naşi vali kiçik müavini Əli bəy Zizikskiyə müraciət etməlidir.

*732 1-1*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Hökumət qərardadı**

Avtomobil qarajı, Ejen Şmid zavodu əmələ [fəhlə] və qulluqçuları ilə ingilis müəssisələri qulluqçularına verilmək üçün Ticarət və Sənaət [Sənaye] Nəzarəti ixtiyarına 200 min manat para buraxılmışdır.

* * *

Maarif nazirinin məruzəsinə görə, hökumət mətbəələrində olan qulluqçu və əmələlərin məvacibi artırılır.

**Səhiyyə Nəzarətində**

* Gəncə quberniyasında Bərdə kəndinin təbibi Yakuboviç öz ərizəsi mövcibincə [əsasında] bu il kanuni-əvvəl [dekabr] ibtidasından [əvvəlindən] öz vəzifəsindən kənar edilir.
* Gəncə həbsxana təbibi Ağalar bəy Ağalarbəy oğlu Səfikürdski bu ilin təşrini-sanisi [noyabrı] 14-ündən Gəncə quberniyası təbibinə müavin təyin edilir.
* Səhiyyə Nəzarətinin baş dəftərdarı Matuzova bu il təşrini-sanisi [noyabrı] 11-indən tibb[i] statistika şöbəsinin kargüzar müavini təyin edilir

*Səhiyyə naziri Rəfibəyov*

**Ziraət [Kənd Təsərrüfatı] Nəzarətində**

Bu il təşrini-sani ibtidasından Hüseyn bəy Mirzəcamalov Ziraət nazirinin katibi təyin edilir.

*Ziraət Naziri X. Sultanov*

## BAKI, 20 TƏŞRİNİ-SANİ

Keçənlərdəki hərc-mərci, təzəllümü [zülmdən şikayətlənməni, zülmkarlığı], fitnə və fəsadı görən əhali indi də belə şəhərimizdə bir qilüqal [mübahisə] gördükdə və ya eşitdikdə cürəbəcürə fikirlərə və təşvişə düşüb dükanları bağlamaqla və qoyun sürüsü kimi ora-bura qaçıb əhali arasına vahimə (panika) salırlar. Bu isə kiçik bir hadisəni böyük bir münaqişəyə və ya qeyrə müncər eyləyib [çəkib, çevirib] bəzi vaxt nəinki bir "sui-hərəkət"lə [pis davranışla] iş tamam olur, bəlkə aralıqda filhəqiqə [doğrudan da] başqa namünasib şeylər törəyir. Bunun da nətayici [nəticələri] nə qədər fəna olacağı hamıya məlumdur.

Azərbaycanımızın paytaxtı olan Bakıda bu gün öz qoşun hissəmiz yoxsa da, İngiltərə, Fransa və Amerika kimi mədəni millətlərin müntəzəm qoşun hissələri vardır ki, Bakıda yaşayan bütün əhalinin bilafərqi-dinü-millət [din və millət fərqi olmadan] asayişini mühafizə etməsini öz öhdələrinə almışlar.

İngiltərə, Fransa və Amerika əhalisi arasında pozğunluq və ya digər binizamlıq [intizamsızlıq] görülməmiş bir şeydir. Oralarda yalnız, ya inqilab ola bilər ki, o da dünyada xariqüladə bir vüquat [fövqəladə bir hadisə] münasibəti ilə və ya nümayişlər olur ki, əhali yenə də mühüm bir vüquat münasibətilə silahsız, dinc və fərağat bir cəmmi-qəfir [böyük bir qələbəlik] təşkil edib hökumətə və ya parlamana öz ərzi-hallarını və istəklərini deyərlər və ya mitinqlər yapıb siyasi və ya iqtisadi vəziyyətlərinə dair nitqlər söylərlər. Buralarda, küçələrdə başqa münaqişələr və mücadilələr olmaz. Çünki, böylə şeylər nə əhali tərəfindən sadir olar [meydana gələr] və nə də polis qoyar. Siyasi firqələr bir-birinə və ya bir millət nümayəndələri digərlərinin əleyhinə təcavüz yapması – burası nə İngiltərə və nə Fransada görünməz bir şeydir. Böylə fəna hadisatın vüsətinə [yayılmasına] yalnız Rus çarlığı müsaidə verirdi. Lakin ingilis və fransızlar üçün bu təəccübamiz [təəccüblü] bir vaqeə [hadisə] ola bilər.

Buna görə əhali, baxüsus [xüsusilə] müsəlmanlar bilməlidir ki, bizim asayişimiz mətin bir əldədir. Həmin asayişi pozmaq istəyən bir hərif tapılarsa, onun önünü həm polisəmiz və həm də şəhərimizdə əsgəriyyə qüvvələri əlində olan Müttəfiq Komandanlığı həman dəm alıb, münaqişənin rişəsini [kökünü] kəsərlər. Buna görə heç bir əndişəyə məhəl [yer] yoxdur. Hər bir şəxs öz hüquq-heysiyyətini və şərəfini müdafiə etməklə bərabər, şəhərdə vahiməyə yer verməməlidir.

Bunun üçün lazımi müəssisələrimiz mövcuddur ki, bir kəsə, kim tərəfindən olur-olsun, bir təcavüz, ya əziyyət olsa lazımi yerlərinə bildirməlidir. Lakin, vüquatın və hadisənin başqa bir rəng almasına məhəl verməməlidir. Bolşevik və daşnak əyyamı artıq keçmişdir.

## TELEQRAF XƏBƏRLƏRİ

Moskvadan bütün şuralara xəbər verilir ki, Belebey Şura əsgərləri tərəfindən alınmışdır. Şimali cəbhədə: Arxangelsk dairəsində, Plesetsk-Yeletsk tərəfdə bizim dəstələrimiz altı verst ilərilәyib, Kadış şimalında olan mövqeyi zəbt etmişlərdir. Cənub cəbhəsində: Voronej hissəsində Valuy tərəfində düşmənin yüz nəfərdən ibarət dəstəsi sərhəd məhafizəmiz tərəfindən dəf edilmişdir. Yevstratovka tərəfdə qabaq dəstələrimiz geri çəkilmişdir. Şərq tərəfdə əsgərlərimiz Kozinkanı işğal etmişlərdir. Pavlovsk və Bobrovsk tərəfində vaqe olan inadlı müharibələrdən sonra bizim dəstələrimiz geri çəkilmişlərdir. Novoxopyorsk istiqamətində bizim dəstəmiz Koleno kəndini zəbt etmişlərdir. Balaşov-Kamışin tərəfdə əsgərlərimiz müharibə ilə Nikolayevka, Kupava və Tyumenovkanı işğal etmişlər.

Kamışin istiqamətində sağ cinah hissələri Popovka, Filinka və Danilovka tərəfdə hücuma başlamışlar. Hücum müvəffəqiyyətli bir surətdə genişlənməkdədir. Kizlyar dairəsində bizim əsgərlərimiz yenə təzədən Çornırınoku almışlardır. Şərq cəbhəsində Samara, Orenburq istiqamətində əsgərlərimiz müharibə ilə Nikolayevka, Antonovka, Kirsanovka və Yelşanka xəttinə qədər irəli hərəkət etmişlərdir. Əsirlər tutulub, top və qeyri mühimmat [ləvazimat] qənimət alınmışdır. Ufa istiqamətində Kamış, Sadak, Radovka ilə Abdulino və Yakovlevka stasyonları əsgərlərimiz tərəfindən zəbt edilmişdir.

Belebey şimal-qərbində İsametovo və Turayevo mövqeləri işğal edilib, top və iki pulemyot alınmışdır. Votkinsk dairəsində əsgərlərimiz düşməni Sidorovka və Osinovkadan çıxardıqda, düşmən təzə qüvvə alıb Osinovkanı qaytarmağa müvəffəq olmuşdur. Perm dairəsində, Krasnoufimsk istiqamətində əsgərlərimiz hücuma keçib, Poyeduxinonu, Lyok çayı kənarında olan hamı kəndləri Tatarskaya Bırmadan Bolşoy Lyoka qədər işğal etmişlərdir.

Lısvenski dairəsində Kınovski zavodunu aldığımız zaman düşməndən 1300 əsgər və 12 zabit əsir etmişik. Kuşvinsk istiqamətində əsgərlərimiz Aktay çayını keçib müharibə etdikdən sonra, Aktay kəndini zəbt etmişlər.

Nikolayevski-Uralski istiqamətində əsgərlərimiz hücuma keçib, Peremyotnı stasyonunun 15 verst məsafəsində olan bir çox kəndləri işğal etmişlərdir. Şimal tərəfdə Volçansk, Koşmaryov və Sobolev zəbt edilib, düşmən əks-hücumları dəf edilmişdir.

## QƏZETƏLƏRDƏN

**Rusiya şimalında**

Kiyevdə müntəşir [nəşr olunan] "Russkiy qolos" qəzetəsi sansür [senzura] icazəsi ilə xəbər verir ki:

Moskvanın məlumatlı dairələrində dəvəran edən [dolaşan] şayiata [şayiələrə] görə, Amerika rəisi-cümhuru [prezidenti] Vilsonun israrı ilə Müttəfiqlər bolşevizm müqabilinə [bolşevizmə qarşı] geniş miqyasda mübarizəyə başlamağı təhtiqərara almışlardır.

Arxangelsk dairəsində güya 110 min nəfərlik Müttəfiqlər qoşunu cəm olmuşdur. Bunların arasında rus könüllüləri də var. Şimal ordusu adlanan bu qoşun, Şimali Dvina çayı boyu ilə hücuma keçmişdir və hücumunu dəmiryol xətti ilə Vyatkayadək davam etdirəcəkdir.

Perm-Kama dairəsində əməliyyatda bulunan çexslovak qoşunları dəxi Vyatkaya gəlməlidirlər. Bu hərəkətdən məqsəd bolşevik dəstələri müqabilinə müttəhid [vahid] bir cəbhə hasil etməkdir.

Bu əməliyyat müvəffəqiyyətlə xitampəzir olduğu [başa çatdığı] təqdirdə, bolşevik qoşununun vəziyyəti fənalaşacaqdır. Şimal ordusu ilə çexslovak dəstələri birləşsələr, Sibiryanın müxtəlif nöqtələrində əməliyyatda bulunan bolşevik dəstələri tamamilə mərkəzdən ayrılaraq təslimə məcbur olacaqlardır.

Bolşevik qoşunları arasında bu münasibətlə böyük həyəcan var. Müsəlləh [silahlı] qüvvələrə müqavimətdən aciz olan bolşevik dəstələri silahsız camaatla nəhayət dərəcədə fəna rəftar edirlər.

Yapon qoşunları artıq Baykal gölünün bərisinə keçmişlərdir. Sibirya dəmiryolundakı tunellərin patladılması haqqında bolşevik qəzetələri tərəfindən buraxılan şayiələr yalandır. Baykaladək amerikalılar yolları gözəl bir surətdə mühafizə və yapon qoşunlarının arxasını təmin edirlər.

**Ukraynada**

Kiyevdə Sofiya kilsəsində "Novoye vremya" qəzetəsinin məşhur mühərriri Menşikov üçün ayini-ruhani [ruhani ayin] icra edilmişdir. Menşikov bu axırlarda mühərrirlikdən və camaat işlərindən əl çəkib Valdayda yaşadığı halda bolşeviklər tərəfindən güllələnmişdir.

**Krımda**

- Krım Hökuməti Ukrayna ilə olan müzakirat tarixini "Yaşıl kitab" namında nəşr etməyə hazırlaşmaqdadır.
- Bütün tatar təşkilatları və kənd cəmiyyətləri nümayəndələrinin ictiması [yığıncağı] dəvət ediləcəkdir. İctima məramnaməsində olan məsələlər bunlardır: Nahiyə parlamanının dəvəti, hökumət təşkil edilməsi, qurultay intixabatı [seçkiləri], hal-hazırdakı Tatar Milli Direktoriyasının [Hökumətinin] mühasibatı [hesabatı].

**Odessada**

"Odesskiye novosti" qəzetəsi yazır ki, dünən bütün şəhərdə top və tüfəng atəşi davam edib, həyəcana bais olmuşdur. Axşama qədər bu atışmanın səbəbi dürüst məlum olmamışdır. Dyukovski bağında gündüz bir top gülləsi patlamışdır. Şəhərin Privoz tərəfində bir çox adamlar həbs edilmişlərdir.

(Bu xəbərin dalı qəzetədən çıxarılmışdır).

## ZAQAFQAZİYA SOSİAL-DEMOKRATLARININ TELEQRAFLARI

Zaqafqaziya sosial-demokrat təşkilatlarının 8-inci ictiması [qurultayı] aşağıdakı təbrik teleqraflarını göndərmişdir:

1) Zaqafqaziya sosial-demokrat təşkilatlarının 8-inci ictiması Rusiya Sosial-Demokrat Fəhlə Firqəsinin Mərkəzi Komitəsi namından Rusiya sosialist füqərayı-kasibəsinə [proletariatına] öz qardaşlıq salamını göndərir. Qardaş öldürücü cahan müharibəsi sönüb, beynəlmiləliyyət bayramı başlanmaqla Rusiya füqərayı-kasibəsini müharibədən ona vurulan zərbələrdən və demokratiyanın məğlub olmasından düzəlməsinə ümidvar oluruq. Bu bədbəxtlikləri dəf etmək üçün vaxtlı-vaxtında beynəlmiləliyyətin kifayət qədəri qüvvəsi olmamışdır. Beynəl-miləliyyətin verilməsi ilə Rusiya sosial-demokratiyasının və Rusiya füqərayikasibəsinin dirilib onu bərbad edən qüvvələrə qalib gələcəyinə və sosia lizmin düz və doğru yolu olan bütün cahan demokrat hərəkatı cərgəsində təzədən öz yerini tutacağına ümidvar oluruq.

2) Almaniyada olan inqilab bayramı günlərində Zaqafqaziya sosial-demokrat təşkilatlarının 8-inci ictiması alman sosial-demokratiyası namında [timsalında] alman füqərayi-kasibəsinə öz salamını göndərir. İctima ümidvar olur ki, öz vətənini müharibə bədbəxtliyindən və imperializmdən xilas etmək üçün monarxiya tərzi-idarəsini [rejimini] endirib və demokratik cümhuriyyəti bərpa edilməsi təşəbbüsatını əlinə alan alman füqərayikasibəsi öz ali məqsədinə nail olar.

3) Zaqafqaziya sosial-demokrat təşkilatlarının 8-inci ictiması dörd illik qardaş öldürücü müharibədən sonra birinci dəfə cəbhələrdə qan tökülmədiyi gün cəm olub beynəlmiləl füqərayi-kasibəsinə öz qardaşlıq salamını göndərir. İctima, beynəlmiləliyyətin diriləcəyi [günün] yaxın olduğuna inanır. Aləmi-insaniyyət də imperailst müharibəsindən almış olduğu yaraları bununla sağalda biləcəyini gözləyir. İctima ümidvar olur ki, təzə həyata başlayan beynəlmiləliyyət tarix tərəfindən meydana qoyulmuş olan zəhmətkeşlərin azad edilməsi ilə sosializmin möhkəmləşməsi məsələlərini həll etmək üçün qüvvə tapa bilər.

## İMLA MƏSƏLƏSİ

Bir millətin dərəceyi-tərəqqisini [inkişaf səviyyəsini] təyin etmək üçün baş vəsilələrdən biri də dili və ədəbiyyatıdır. Ən mütəməddin [mədəni] millətlər ən gözəl, ən ətraflı, millətinin bütün duyğularını, bütün fikirlərini, bütün əməllərini [arzularını], bütün ehtiyacını təsvir edici ədəbiyyata malikdirlər. Cahil millətlər isə hər bir cəhətcə zə'f [zəiflik, gerilik] göstərdikləri kimi, ədəbiyyatca dəxi zəiflərdirlər. Mütəməddin millətlər ədəbiyyatın iç aləmi ilə, mənəviyyatla uğraşırdılar. Meydana atdıqları əsərlər, təsvir etdikləri təbiətin gözəllikləri, hisslərin incəlikləri, təsirləri ilə və ya əksinə olaraq təbiətin istənilməyən, bəyənilməyən halların vücudunun [var olmasının] pis təsiri və insanlar arasında vüqu bulan [baş tutan] əlaqələrin, təprənişlərin [davranışların] acılığı ilə ciddən rəqabətdə bulunurlar və əksəriyyən faiq [üstün] olurlar. Böylə ki, şairlər, ədiblər deyil, təbiət və müsəvvərat [təsəvvürlər] müqəllid [təqlidçi] sanılırlar.

Biz isə ədəbiyyatın dış [xarici] tərəfini hənuz düzəltməmişik. Biz dedikdə, Azərbaycan türklərini nəzərə alırıq. Hərçənd, tənqid edəcəyimiz cəhət bizdəkindən bir qədər az olaraq İstanbul, Anadolu və başqa türklərdə dəxi mövcuddur.

Bu vaxta kimi yeni Osmanlı ədəbiyyatında bir və müəyyən bir imlanın hökmfərma [hökmran] olması görülməyir. Hər şairin, ədibin imlada kəndi xüsusiyyətləri vardır. Bəzən Şekspirlərin, Bayronların, Götelərin qibtə edəcəkləri əsərlərə malik olan Əbdülhaq Hamidlərin, Sami Paşazadə Səzailərin hər vəchlə olmuş olsa [hər hansı yolla olur-olsun] şu ümumi mərəzə əlac etmədikləri, imlanı birləşdirmədikləri şayani-təəccübdür [təəccübə layiqdir]. Hərə bəzi kəlimələri bir cür yazır. Kəndisini böylə yazmaqda haqlı sanır və kəndisincə isbat dəxi edir.

Bizim halımız, vəz'imiz [vəziyyətimiz] daha pisdir. Əvvəla, iki tərəfin arasında mütərəddid [tərəddüddə] qalmışıq. Böylə ki, kim olduğumuzu və kim olmamız yaxşı olacağını bir dürlü təyin edəmmirik. Gah Azərbaycan türkləri tərəfinə yönəlirik, gah yarımçıq Osmanlı oluruq. Şu söylədiyimiz hərəkətlər ayrı-ayrı fərdlərə müxtəss [xas, məxsus] olmayıb, bir fərddə bulunur. Böylə ki, bu yazıçı (mən dəxi onlardan qabaq o sırada) yazdığı bir məqalədə, bir risalədə gah Azərbaycan, gah Osmanlı şivəsi işlədir. Gah Osmanlı imlalarının birisini təqlid, gah bərəkət versin, ixtira etdiyimiz sayısız Azərbaycan imlalarının birisini və ya neçəsini bir yerdə təqlid edir. Bir qəzetə oxunarsa, müxtəlif, sirləri anlaşılmaz imlalar, bu gün bir imla, yarın başqa imla... Əcəba nə vaxta kimi? Mühal [çətin; mümkünsüz] işlər vücud bulur, bizim şu "mümkünümüz" vücud bulmadı. Hələ şu "mümkünü" mühal şəklində uzun müddət saxlayacağız.

Müəlliflərimiz pək naqis, müəllimlərimiz daha naqis... Qəzetələrdə oxuyuruq: filan darülmüəllimin [pedaqoji məktəb] bu qədər, başqası filan qədər müəllimlər hazırlayıb, saheyi-fəaliyyətə buraxmış. Fəqət, Azərbaycanın qəlbi, ruhu olan Bakının qəlbi, ruhu olan məktəblərində onlardan birisini bulammırıq. Onlarda əksəriyyən qabaqki, türk dil və ədəbiyyatından hissələri [anlayışı, payı] yalnız beşüç kitabların səthi mütaliəsi[ndən ibarət] olan "məlumlar" meydan sürürlər.

Məktəblərdə 4-üncü sinfə kimi məcburən, 4-üncü sinifdən yuxarıya kəndi xahişləri üzrə əcnəbilər dəxi türk dilini təhsil edirlər. Bir müəllim "su" kəliməsini سو; başqası صو; üçüncüsü gah صو; gah سو yazdıracaqdır.

Bir müəllim taş طاش; talmaq طالمق; kim كيم; şimdi شيمدي; asmaq آصمق; aslan اصلان; qorqudan قورقودن; yigirmi يكرمى; qayıtmaq قايتمق; yıqmaq ييقمق; şövqündən شوقندن; sevmək سهومك; başına باشنه; nazik نازك; kibi كبى; işitmək ايشتمك və qeyrə-qeyrə... (hədsizdir) yazdıracaqdır. Başqası: daş داش; dalmaq دالمق (ya دالماق); şimdi شمدي; asmaq آسمق (ya آسماق); aslan آسلان (ya آسلان); qorqudan قورقودان; igirmi ايكرمى; ايكيرمى; yigirmi ييكيرمى; qayıtmaq قاييتمق; yıqmaq يقمق (ya qayıtmaq قايتمق; yıqmaq ييقمق); şövqindən شوقيندان; شوقيندن; sevimək سهوميك; başına باشينا; باشينه; nazik نازيك; kibi كيبى; işitmək ايشيتمك və qeyrə-qeyrə… (hədsizdir). Üçüncüsü gah əvvəlki, gah axırkı surətdə yazdıracaqdır.

İki şivəni bir-birinə qarışdırmaq (və olduqca qaydasız bir surətdə qarışdırmaq) ikisini də qiymətdən düşürür.

*Əbdülvahab Məhəmmədzadə*

## TÜRKİYƏDƏ QADINLIQ MƏSƏLƏSİ
## "Feminizm"

Qadınlıq həyati-ictimaiyyəmiz [ictimai həyatımız] içərisində ifa edə gəlməkdə olduğu rolu haqqı ilə təqdir edil[mə]diyindən pək böyük xətalara düşürük. Bu ana qədər bir çox mühərrirlər, müəlliflər qadınlıq haqqında yazdıqları yazılar mətlub vəchlə [istənilən kimi] əfkari-ümumiyyə [ictimai rəy] üzərinə təsir yapammadı. Bu nöq-teyinəzərdən Türkiyədə oyanan cərəyanlardan bəhs etməklə "feminizm" (qadınlıq) məsələsi haqqında bir qədər məlumat vermək istəyirəm. Çünki ciddi surətdə tədqiqə möhtac məsələlərdən birincisi budur.

* * *

Qadınlıq Türkiyədə nə surətlə oyandı? Daireyi-şümulu [əhatə dairəsi], xəlqi mahiyyəti, tarixi təsirat [təsirləri], ictimai hadisatda feminizm cərəyanlarına yol açması və 10-uncu əsrlə – 20-nci əsrdəki qadınları tədqiq, həyati-ailədə [ailə həyatında] oynadıqları rollar, istiqbal qeydi-əndişələri [gələcək qorxusu, narahatlığı] və hissiyyatiəncam. Bu nöqteyi-nəzərdən mühakimati-qəsiranəmi [qısa mühakimələrimi] yürütmək fikrindəyəm. Azərbaycanın feminizm haqqındakı vüsəti-məlumatına [məlumat həcminə] bir səhifə daha əlavə şərəfini ehraz etmiş [qazanmış] olaram.

Nuri-irfan [və] kəmalati-mədəniyyətin [mədəniyyətin yetkinliklərinin, fəzilətlərinin] çırağı, onun mütəmmimatı [tamamlayıcısı, kamilləşdiricisi] olanlar maariflə mülhəmdir [ilhamlanmışdır; onlara maarif əta edilmişdir]. Buna şübhə yox. Mədəniyyət şöleyi-şüarının [şüarının şöləsinin] inikasatı [əksləri] bittəb [təbii ki] bu yurdcuqda yaşayan qadınlarımıza, əlbəttə bir əsər göstərəcəkdir. Bura yurdunun həyati-irfanına biganə olan qadınlara bir nəbzəcik [azacıq] bəhs edərkən, şübhəsiz, ruhu titrəyəcək, mədəniyyətə doğru incizab [coşmaq, vəcdə gəlmək], fikri mütəmayil [təmayüllü] xislətlər təbiətlə kəndiliyindən tülu edəcəkdir [aşkara çıxacaqdır]. Bu vəsilə ilə bulunmuş məlhuz olan [təsəvvürdə canlanan; ağla gələ bilən] "fanatizm", yəni mütəəssibin[in] əfkarına [təəssübkeşlərin fikirlərinə] qarşı livayi-üsyan [üsyan bayrağı] qaldırmış olacağız. Ancaq mədəniyyət nuruna doğru qoşmuş bulunacağız.

* * *

Bəni-bəşərin [bəşəriyyətin; insanlığın] nisfini [yarısını] təşkil edən bənati-Həvvanın [Həvvanın qızlarının; qadınların] müxtəlif əqvam [xalqlar] içərisində layiqi bulunduğu məzayayi-aliyyə [ali məziyyətlər, yüksək keyfiyyətlər], fətanəti-kamilə [kamil zəka], nəcabəti-fitriyyənin [fitri nəcibliyin] müvəllədatına [doğulmasına, meydana gəlməsinə] səbəb olduqları kimi, ən cibilliyyətsiz [xaraktersiz; yaramaz] bir xislətibədmayə ilə mütəxəlliq [mayası xarab, pis xasiyyətli] insanların kaffeyi-nəşətgahı [meydana çıxdığı bütün yerlər] o ağuşimadər [ana qucağı] deyilmi? Mən bu iki fərqin birisini mərəzi-ictimai [ictimai xəstəlik], digərini mədəniyyətin şəşəeyi-fitrəti [fitrətinin dəbdəbəsi, parlaqlığı] olaraq zikr edə bilərəm. Yox, əgər, qadınlığı avamfiribanə [avamlara məxsus] düşüncələrlə iğlaq edər isək [açıqaydın olmayan tərzdə ifadə etsək, gəvələsək] məsələyə haqqı ilə tənvir etməmiş [işıq salmamış; işıqlandırmamış] olacağız.

Məhdi-mədəniyyətin [mədəniyyət beşiyinin] əvvəla ağuşimadərdən [ana qucağından] südurunu [əmələ gəldiyini] fikrinizə qavrayan, dünyada yaşayan şu kütleyi-bəşər təməvvücatı [dalğalanması; çalxalanması] iştə dürlü-dürlü mahiyyətdə, dürlü-dürlü tinətdə [təbiətdə; xasiyyətdə] olduğuna nəzərən eyilik və ya fənalıq cəhətinə sapacaq olan təbiətin bidayətini [başlanğıcını] araşdırmaq surəti ilə fikrinizi təşrih edəlim [şərh edəlim; açalım]:

Təkəmmülati-gunaguna [cürbəcür kamilliklərə] şərik olan qadınlar olduğu kimi, saymaqla tükənməyən bir taqım bədayeyi-xilqətə [yaradılışın gözəlliklərinə, incəliklərinə] də malik və sahib bulunmaqdadırlar.

Bəşərin meyl etdiyi təbii mücadilatda [mübarizələrdə] təbiətin məhasini [gözəllikləri] qüdrətini tərrənnüm etdiyi dəqiqələrdə gərək cəlaləd [mətanət, dəyanət] və gərəksə riqqəti-hissiyyat [duyğuların incəliyi] cəhətlərində daima dərəceyi-kamalda [kamillik dərəcəsində] görürüz.

Mən bütün bu xislətlərin mayeyi-hüsulyaftəsini [əmələ gəlməsinin mayasını] kamilən [tamamilə] qadınlıqda ictima etdirmək [toplamaq; bir yerə yığmaq] istəyirəm. Çünki o nurifəza [fəzanın nuru] da, zülmətdə doğduğu kimi, aləmi-nuranidə [nurani aləmdə] nurlara qərq olar. Kəndi mühitində bir günəş qədər rövnəqdar [parlaq] bulunduqca, bütün mücavir üməmi [qonşu millətləri] də feyziyab etməklə kəndiləri də zövqyab olar [həzz alar]. Yəni, şəxsi qayələr istihdaf [hədəfləmək] məqsədi ilə mədəniyyət çələngini sərtaci-ibtihacı [şadlıq tacı] olaraq daşır isə həmcinsinə və bəni-başərə [insanlığa] xidmət etmiş olacaqdır. Gələlim sədədə [əsas mövzuya]:

Türkiyədə "feminizm" nə surətlə tələqqi edilirdi [başa düşülürdü]? Sonrakı təkamülü nasıldır?

Türkiyə, dövri-istibdadın [istibdad dövrünün] asarı-nühusətkarisi [uğursuz, nəhs təsirləri] səbəbi ilə qadınlıq üzərinə cərəyanlar oyandırmağa müsaid deyildi. Bir cəmiyyət vasitəsilə əfkariəhraranəni [azad fikirləri] nəşr və təmim [yaymaq və ictimailəşdirmək] mümkünmü idi? Dərhal Fizan və Yəmən çöllərinə sürülər, qızğın günəşin atəşləri içərisinə atılar, öylə bir vücudi-nadirə [nadir varlıq] nabədid [görünməz] olardı. Bundan başqa zindanlarda mövtalar [ölülər] kimi sükuti [səssiz; sükut içində] əzablara, ələmlərə giriftar edilərdi. Bu zülmi-biaman [amansız zülüm] qadınlıq fikrini sərbəst bulammaz, yeganə düşünülən sultana təəbbüd [qulluq etmək] kimi hallardan ibarət idi. Buna bir misal zikr etmədən keçməyəcəyəm:

Türkiyədə dövri-dilarayi-məşrutə [könül açan konstitusiyalı monarxiya dövrü] müyəssər olduğu zamanlar sultan Əbdülhəmidin möhtəşəm, əzəmətfüruş [əzəmətli görünən] rəsmlərindən bir tanəsini alıb xanəmizin münasib bir məhəllinə [yerinə] təliq etmişdim [asmışdım]. Böyük validəm mənə sorurdu:

- Bu kimin rəsmi, oğlum?
- Nənəciyim, bu İstanbulda oturan xəlifəmiz, padşahımız sultan Əbdülhəmid əfəndimizdir.
- Öylə isə abdəst alayım da, ondan sonra mübarək üzünə nəzər edəyim, – deyərək qapıdan dışarı çıxdı.

Baxınız, qadınlar üzərində nə müdhiş [böyük; möhtəşəm] təsirat [təsirlər] buraxmış, nə qədər möhtərəm və böyük olaraq təcəssüm etmiş!..

Dövri-Həmididə [Əbdülhəmid dövründə] qadınlar dini übudiyyətlərindən [qulluqlarından; ibadətlərindən] başqa zövclərinin [ərlərinin] hər əmrinə münqad [tabe] bulunmaq surəti ilə yaşarlardı. Bu üzdən qadınlarda üfürükçülərin kəsrəti [çoxluğu], qurşun tökənlərin həddi və hesabı yoxdu. İsqambil [kart] falı, baqla [paxla] falı, musqa [nüsxə; tilsim duası] və sairə kimi etiqadati-batilə [batil etiqadlar] peşində [arxasınca] hər gün bir çox paralar sərf və israf edilir.

Büyüçülük [cadugərlik], sehirçilik o qədər iləricə getməmiş isə də yaşıl sarıqlı, caməkan [arakəsmə] arxasına gizlənmiş boyun təsbehlərini birər-birər kamali-vüqarla çəkən məşayix [şeyxlər] hüzurunda nə qədər böyük ehtiramatlarla müqabilə edərək [hüzuruna çıxaraq, qarşısına çıxaraq] kəndi müaşəqatına [məşuqlarına] və ya zövcünə qarşı açdıracaq fallara, üfürükçünün hər bir əmrazi-əsəbiyyəyə [əsəb xəstəliklərinə] birə-bir gələcək [tam münasib gələcək; çox faydalı olacaq] müalicədən mədud bulunmağa [hesab edilməyə] nə qədər rəbti-qəlb edilmişdi [könül bağlanmışdı]...

Ah, qadınlıq nə tədənnidə [alçalmış] idi, nə fəna idi! Ailələr beynində [arasında] bu üzdən dediqoduların kəsrəti [çoxluğu] o qədər bol idi ki, insan söyləməyə hicab edəcək [utanacaq] kəlamlar ələladə [adi, təəccüb doğurmadan] sərf edilir idi.

Zimami-ümuridövlət [dövlət işlərinin cilovu] yədi-idarələrinə [idarəçilik əllərinə] tövdi edilmiş [tapşırılmış] böyüklər bittəb [təbii ki], qadınlığın böylə pəspayə [aşağı, səviyyəsiz] bir mərtəbədə bulunmasına riza göstərəmməzlərsə də, səfineyi-dövlətə [dövlət gəmisinə] şərik yarışçı çıxmamaq üçün də bir az göz yumulurdu. Bu surətlə qadınlığın nəşvünümasına [tərəqqisinə], təkamülünə, təalisinə [ucalmasına], təfəyyüzünə [irəliləyişinə] bittəb mane idi. Qadın ruhu və qadın ağlı ilə işlər tədvir olunammayacağına [yeriməyəcəyinə; idarə edilə bilməyəcəyinə] qail [inanmış] idilər. Onların nəzərində qadınlıq eşq üçün, zövq üçün yaşayan məxluqlardan ədd [hesab] edilirdi.

Bir millətin mədəniyyətini ölçmək üçün miqyas qadınlardır. Tədqiq edilərsə, dərəceyi-qüdrəti [qüdrətinin dərəcəsi], dərəceyi-mədəniyyəti [mədəniyyətinin dərəcəsi, səviyyəsi] dərhal meydana çıxar. Bir az saraylara ətfinəzər edəlim [nəzər salaq].

Ol vaxt əski dəbdəbə və daratı [ehtişamı] sarayların, mütəntən [təntənəli] ehtişamların aramgahı [mənzili, məskəni] olan saray həyatı bir məşhəri-səfahət [başdan-ayağa əyləncə və həzz yeri] idi. Bu böylə olduğu kimi, xüddam [xidmətçilər] və təvabein [qulluqçular], qürəna [hökmdarın ətrafındakı şəxslər] və əkabir-ümərası da [böyüklər, vəzifəlilər də] görünük olaraq eyni tərz və eyni məşrəbpərəstanənin [xasiyyətin] məhsulları idi. Bunların dövri-səltənətlərini qadınlıq ruhunda mündəmic [qadınlıq ruhunun içində yer alan] eşq oyunları ilə oynanmış yeganə cazibədar çöhrələr, füsunkar nəzərlər aranar və bulunardı.

Şərqin çərkəzləri, qərbin ingilis və fransızları çariçə, odalıq, mürəbbiyə, müəllimə olaraq kaşanalərinə qəbul edilərdi.

Şu surətlə Türkiyə ricali-dövlətinin [dövlət adamlarının] aləmi-səfahətdə [əyləncə məclislərində] dürlü-dürlü əyləncələr tərtib etməklə məşğul bulunmaqla bərabər, eşq nəğməzənlərinin [eşq nəğmələri oxuyanların] sahir [sehirli; məftun edici] təəssüratından müğşayi-qaram [eşq və zövq içində itib-batmış; eşqdən və zövqdən bayılmış] olduqları zamanlar xəzineyi-dövlətdəki mövcud nüqud [nəğd vəsaitlər] və əmlak kamilən israfanə sərf edilir, zövqləri uğruna o zərrin [qızıl] iklillər [taclar; çələnglər], o tacimüfəvviqlər [bəzəkli taclar] bayağı hökmündə [adi şeylər kimi], o münasibi-

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 20 noyabr (Çərşənbə günü) tarixli 45-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

aliyələr [aliliklərə, ucalıqlara yaraşan şeylər] kamilən [bütünlüklə, hamısı] bu nəzəri-eşqin pişibədbinanəsi [eşq nəzərinin bədbin çöhrəsi] önünə sərilir. Müqəddərati-dövlət [dövlətin müqəddəratı] bir tərəfə buraxılır. Milyonlarca insanlar o canavari-şəhvətpərəstanın [şəhvət düşkünü canavarların] əllərində qalıb gedərdi. Bu surətdə [bu halda] qadınlıq nasıl ehya olar [dirçələr]?

*Əbdüllətif*

## POSTA VƏ TELEQRAF MƏKTƏBİ

Son zamanlar vətənimizə ən lazımlı və böyük əhəmiyyəti haiz [daşıyan] bir şey varsa, o da Bakıda posta və teleqraf məktəbi açılmasıdır. Bilümum, posta və teleqraf ümuratında [işlərində] sabiq Rusiya dövləti zamanından başlayaraq, hal-hazıradək işləyən fəqət [ancaq, yalnız] bir taqım məmurlar olmuşlar ki, onların səhlənkarlıqları sayəsində [işlər] sühulətlə [asanlıqla] pozulmuş olur. Bununla da dövlət makinasının [maşınının] mədəni bir cəhəti sarsılır. İşimiz bu kimi bir vəziyyət aldıqda, gənclərimizdən posta və teleqraf ümuratına [işlərinə] mükəmməl vaqif adamlar çıxarmalıdır ki, bunların fədakarlığı və işlərində kəsb edəcəyi [qazanacağı] ixtisas köməyi ilə qarşımızda duracaq maneələri ortadan qaldırmaq mümkün olsun. Böylə olduqda, bu heyəti bir az yeniləşdirmək, idarələrdəki kəsif havanı bir az dəyişdirmək, "işləyib para almaq" tələbində olanlar miyanın[d]a [arasında] yerli əhalidən vətənə eşqlə qulluq edəcək cavanlarla idarələri doldurmaq lazım idi.

Bunun üçün də Posta və Teleqraf Nəzarəti [Nazirliyi] təşəbbüsü ilə Hökumət tərəfindən bu ümuratın [işlərin] elmi və əməli cəhətlərini öyrənmək üçün məktəb açılacaqdır. Bu məktəbdə islamların əksəriyyət təşkil etmələri mətlubdur [tələb olunur, arzu edilir]. Bu məktəbi bitirmiş məmurlarımız vasitəsilə çoxdan bəri məmləkətimizin ruhuna namütabiq [uyğun olmayan] qanunlarla idarə edildiyinə xitam çəkmək olacaqdır. Fəqət o zaman üçün Rusiyanın köhnə qanunları ilə gənc vətənimiz dolanmayacaq, artıq məmur əhalinin, əhali məmurun dilini, ruhunu bilməklə böyük ehtiyaclar rəf olub [aradan qalxıb] gedəcəkdir.

Bu kimi yeni qüvvələr vasitəsilə məmləkətin gərək ticarət, gərək sənaət [sənaye] tərəfləri tamamilə islah oluna biləcəkdir. Teleqrafın səlahiyyət kəsb etməsi [qazanması] nəinki bərri [quru], bəlkə bəhri [dəniz] ticarətimizə böyük fayda verəcəkdir. Bəhri ticarətin qüvvətlənməsi ilə Bakının iqtisadi xüsusiyyəti bir az asanlaşacaq, başqa diyarlardan aldığımız malı vəsaiti-nəqliyyə [nəqliyyat vasitələri] köməyi ilə həp Azərbaycanı canlandırmaq imkanı olacaqdır.

Bu məsələlərin siyasi və iqtisadi cəhətlərini nəzərə alıb, Hökumətimiz də bu məktəbi tamamilə bir milli məktəb şəklinə salmış olsaydı, ictimai və siyasi bir çox nöqteyi-nəzərdən əski məmurları yeniləşdirməklə qazanmış olardıq. Bundan maəda [başqa], məmləkət üçün mədəniyyətcə bir çox faydalar verəcək posta və teleqraf işlərini kəndi vətənimizdə kəndi əlimizə almalıyız.

Nəzarətin və Hökumətin bu təşəbbüsünü alqışlamaqla, daxil olmaq imkanı olan gənclərimizi də bu məktəbə təşviq etmək istərdik. Bir şərtlə, bu məktəbi qurtardıqda, dövlətimizin yeni-yeni təmir olunduğunu və halın vəxamətini [təhlükəsini] nəzərə alıb, fəqət, vətən uğrunda bu gənclərimiz tutduqları mövqedə ibrazi-qeyrət edələr [qeyrət nümayiş etdirələr; səy göstərələr]. Uğurlar olsun!

*M. Hənəfi*

## AĞAHƏSƏN MİRZƏZADƏ

Millətimiz çalışqan cavanlarından birini də itirdi. Müəllim və mühərrir Ağahəsən Mirzəzadə 27 yaşında ikən millətinə əlvida etdi. Mərhum, cavan ömrünün bir hissini Lahıc və Kürdəmir qəsəbələrində müəllimlikdə keçirtdiyi halda, digər qismini də Bakıda mühərrir və mətbəəçilikdə keçirmişdir. Mərhum çalışqanlığı nəticəsi olaraq, müəllim olduğu vaxt məktəb işlərini bitirəndən sonra, böyüklərə də mənfəət verməkdən geri durmazdı. Lahıcda müəllim olduğu vaxt tez-tez camaatı yığıb leksiyalar (mühazirələr) oxuyardı. Kürdəmirdə müəllim olduğu vaxt camaatı kənd ziraət və ticarət işlərinə tərğib [rəğbətləndirər, həvəsləndirər] və təşviq edərdi. Kürdəmirdə bağ salıb zənbil toxumaq işini nəşr etmək [yaymaq] üçün Qafqaz Maarif müdirinə yazıb, zənbil çubuqları gətirdib, əkdirmişdi. Arıçılığa və süd hasilatına [istehsalına] dair nitqlər söylərdi. Odur ki, daima kənd əhlinin rəğbətini qazanıb, camaatın məhbubülqülubu [qəlbinin sevdiyi] olmuşdur. Bakıda yenə millətinin pişrəftinə [tərəqqisinə] çalışıb, mətbuat aləminə diqqət vermişdir. Bunun üçün xüsusi mətbəə açıb, gündəlik qəzetə verməyə müvəffəq olmuşdur. Hər gün nəşr etdiyi "Sovqat" qəzetəsində müdir və mühərrirlik edib, var qüvvəsi ilə davamına çalışmışdır. Bu xüsusda çəkdiyi əziyyətlər öz müqərrəblərinə [yaxınlarına] məlumdur. Ancaq, gündüz qəzetənin idarəsinə məşğul olduğu halda, gecələr də sübhə kimi yatmayıb qəzetəsinə məqalələr yazardı. Hər kəs şirin yuxuya getdiyi vaxt mərhum oyaq qalıb yazardı. Odur ki, bu qədər əziyyətlərə cavan canı tabavər olmayıb [dözməyib], axırda vərəm xəstəliyinə mübtəla oldu.

Mərhumun cənazəsi qarşısında gözlərim yaşlı deyirəm:

Əziz və sevgili qardaşım! Vaxtsız ölüm səni bizim əlimizdən aldı. Dünən gecələr oyaq qalıb millətin üçün yazdığın qələmlə bu gün göz yaşımı mürəkkəb edib sənin alicənabanə işlərindən ancaq bir neçəsini zikr edirəm. Yat, qardaşım! Çəkdiyin yorğunluqlara qarşı indi əbədi istirahət et! Allah sənə rəhmət eləsin!

*Q. R.*

## RƏSULZADƏ MƏHƏMMƏD ƏMİN BƏYİN KONFRANSI

*(42-nci nömrədən mabəd)*

Mərkəzi-islama gəldikdə, oradakı ənənatı [ənənələri], o gözəlliyi, o məhasini [yaxşı keyfiyyətləri] tamamilə dərk etmiş olursunuz. Tamamilə bunları görər-görməz hiss edəcəksiniz ki, islam nöqteyi-nəzərində İstanbul bədayesi [incəsənəti] içində yeni bir həyat doğur. O vaxt anlarsınız ki, nə yolda və nə üçün bu qədər fədakarlıqlar olur, xariqələr göstərilir. O zaman etiraf edərsiniz ki, yeni doğmaqda olan həyat uğrunda həqiqətən fədakarlıq etmək türklər üçün lazımdır.

Məəttəəssüf [təəssüf ki], Türkiyədə deyil, bəlkə aləmi-islamın həpsində ictimaiyyat [ictimai həyat] Avropadakı kimi olmayıb, fəlc [iflic] bir halda qalmışdır. Avropanın bütün ictimaiyyatı xalq, yenə də xalq üçün doğu[lu]r. Ədəbiyyat ümum heyəti ilə, xalq ruhu ilə, xalq əfkarı ilə, ümumiyyət naminə yaşayır. Bizlərdə isə böylə deyil. Ədəbiyyatın əsaslarını xalqın malı etmək istəmədik. Ayrı-ayrı kimsələr pək alimdir, pək müxbirdir [xəbərdardır]. Fəqət, onu bir araya gəlsə onlarda bir ümumiyyət, bir həyat olmaz. Qiymətli bir həyati-ictimai [ictimai həyat] islam məmləkətlərinin heç birində yoxdur. Bunun ən doğru şəklini İranda görərsiniz. Küçələr bir zibil yatağı, hər tərəfə baxılsa bir xarabazar... Bazardakı satıcılar zir-zibili qarşısındakı çaya atır, suyunu elə bir hala gətirir ki, baxmaq istəməzsən. Həman bu ümumiyyət halını qiymətsiz edən, alçaldan cənabın həyat qapısından içəri girdikdə evində bir cənnət olduğuna şaşıracaqsan. Bu nədir? Onun xüsusiyyəti [özü, şəxsi] üçündür. Bundan bəllidir ki, burada insanlar ayrı-ayrı yaşar, fəqət [yalnız, ancaq] xüsusi həyatından ləzzət aparar.

Ədəbiyyat da öylədir. Şeirlərimiz hər bir şairin öz zövqünə mütabiq [uyğun] olmuş, olsa-olsa ətrafındakı bir taqım əhibbası [dostları], rüfəqası [yoldaşları] onu anlar. Yaratdığı bədiələr [bədii əsərlər], gözəlliklər fəqət onun kəndisi üçün imiş zənn edər, xalq üçün yazammaz.

Qərbdə isə böylə deyil. Orada bütün ədiblər, şairlər xalq dərinliyinə atılıb, onun içərisində duyduğu təsirata, gördüyü həyata həp yazdığını uydurar [uyğunlaşdırar]. Olduqca həyati-ictimaiyyə həyati-münfəridəyə tərcih verilər [ictimai həyat fərdi həyatdan üstün tutular].

Qərbdə bugünkü tərəqqi ilə bizdəki bu inhitat [çöküş], bu iki aləmin miyanında [arasında] olan fərqi nəticəsindəndir.

Şərqdə bir zaman yüksək bir mədəniyyət var imiş. Lakin o da xas [bütün xalqa deyil, sadəcə yuxarı təbəqəyə məxsus] olub, gündən günə zə'fə, izmihlala uğradı [zəiflədi, pozuldu]. Avropada isə ümuma mal olan mədəniyyət fəaliyyəti-ammə [xalqın, geniş kütlələrin fəaliyyəti] sayəsində özünə tərəqqi yollarını aradı, buldu və bu gün də ondakı qələbə ilə bizdəki məğlubiyyət həp bundan dolayıdır.

İştə, bunu da türklər epeyi [yaxşıca] anlamış və bu yolda getgedə tərəqqi etməkdədirlər. Bu yolda ədəbiyyat Türkiyədə gözəl bir mövqe tutur. Yeni türk ədəbiyyatı fəqət xalqın qalın təbəqəsinə enir və yazılanların həpsi xalq üçün yazılır. Türklər ədəbiyyat yolunda çox çalışdılar. Bu vaxtadək onlarda bir çox tərcümələr olmuş, qərb ruhunda kitablar yazılmışdı. Fəqət qərbdən alınmış şəklin eynən qəbul edilməsi yanlış olduğu artıq bəllidir. Çünki iqlimdən-iqlimin fərqi vardır. Hər yerdə bir xüsusiyyət, bir də ümumiyyət olar. Sənət, elm, fənn ümumidir; dil, din, ənənat [ənənələr], ruh başqa-başqadır. Bunların hər birini qəbul etdikdə millətin ruhunu, xüsusiyyətini nəzərə almaq lazımdır.

İşböylə də Türkiyədə olmuş idi. Türklər bu vaxtadək London səyahətindən, Parisdən, Hinddən və digər yerlərdən, əhəmiyyətsiz şeylərdən belə bəhs edib, bircə Anadolunu, bu gün bütün xariqələr, bütün rəşadətlər yaradıcısı, həp İstanbulu və başqa yerləri ərzaqla təchiz edən Anadolunu unutmuşlardı. Məktəblər tamamən İstanbulda, həyati-ictimaiyyə nümunələri İstanbulda, türklərin nəsi varsa İstanbulda idi. Anadolunun məktəbi yox, sənaəti yox, bəlkə belə həyatı da yox kimi idi.

Şimdi isə öylə deyildir. Yeni cərəyan Anadolu xalqı ruhundan, həyatından, ehtiyacından yazır, dərdinə ağlayır. Bu da siyasətə təsir edir. Türk məhafili [dairələri] də buna diqqət etməyə başlayır.

Əbdülhəmid zamanı İttihad və Tərəqqi firqəsi düşünürdü ki, hürriyət olsa hər millət kəndisini unudar. Hamısı qardaş kimi yaşamağa ibrazi-qeyrət edər [səy göstərər]. Böylə bir düşüncəni həyata da, siyasətə də tətbiq etdilər. Fəqət Məşrutiyyət [konstitusiyalı monarxiya] zamanı gəldi. Kimsə kəndisini unutmadı. Arnavudlar [albanlar], ermənilər, ərəblər hər kəs kəndisini düşündü. Unudulmuş bircə türklər qaldığını artıq gördülər.

Bir türk mütəfəkkiri söyləyir ki, bən türklüyümü, fəqət hər millətin Türkiyədə kəndisi üçün çalışdığı zaman duydum.

Türklər də ümumən böylə bir fikrə gəlmişdi. Ona binaən [görə] türklərin siyasəti böyük bir təbədüllata [dəyişikliyə] uğrayıb, hər şeydə milliyyət irəli sürülmüşdür. Lakin burada da bir qədər yanlışlıq, bir qədər ifrat edilibdir. Məlumdur ki, hər kəs öz millətini istədiyi kimi digərini istəməz. Hər kəsdə bir milliyyət fikri müqəddəs tutular. Lakin bir fikrin müqəddəs olduğu kafi deyil. O fikir namüqəddəs yollarla yürüdülsə, fikir də namüqəddəs olacağı bəlli. Məsələn, bolşevizm əqidəsinin müqəddəs olduğunu kimsə inkar etməz. Fəqət bolşeviklərin apardığı siyasət, tutduğu yol namüqəddəs olduğundan, bu gözəl məsləki nə şəklə saldığını gördünüz. Aləmi kəndilərindən mütənəffir etməklə [nifrət etdirməklə], həpsini bolşevizmdən ürkütdülər.

İştə, bu müqəddəs "milliyyət" fikrində türklər də bir çox ifrata uyduqlarından dolayı, bir çox yerlərdə məmurlar digər millətlərə qarşı milliyyətdən suiistifadə etdilər. Ümuri-idarələrdə [idarə işlərində] əxlaqsızlıqlar vücuda gəldi. Belə sui-istemal [sui-istifadə] müharibədən fürsəti qənimət bilən və bundan dolayı üsyan qaldıran ermənilər haqqında rəva görüldü. Lakin üsyan bir ermənilər miyanında [arasında] vaqe olmayır. Ərəbistanda asilər olur. Türk ordusu çəkildiyi yerlərin həpsində qiyam başlanır. Muxtariyyət iddiasına qalxışırlar. Böylə ki, ümumiyyət üzrə Türkiyənin daxilində rahatlıq pozulmuş olur. Bundan maəda [başqa] türk dörd il deyil, səkkiz il, bəlkə də bir az fəzlədir [artıqdır] ki, müharibə edirdi. Dörd illik müharibədə Avstriya parçalanmaya başlamış, Almaniyada isə böylə bir inqilab qopduğunu görürsünüz. Artıq bu kimi hər bir cəhəti qüvvətli dövlətlər belə taqətfərsa [taqəti tükətən] müharibənin təzyiqindən bu hala gəldi. Ondan maəda, müttəfiqlərin yekdigərindən [bir-birindən] əli də üzüldü, Türkiyə də mütarikəyə [atəşkəsə] məcbur oldu.

*M. H.*

*Ədəbi səhifələr*

## QÜRBƏT ELLƏRDƏ YADİ-VƏTƏN

*"Karpat"da ikən*

1

Qafqaz, ey sevgili, gözəl madər
Fitrətən çox dəyərli, çox dilbər!

Ey vətən, ey zəmini-pürqiymət!
Qucağındır həqiqətən cənnət.

Dağların – sərbülənd, sərbəsəma,
Pək gözəldir o səndəki sima.

Ey zəmini behişt olan Qafqaz,
Yer üzündə yeganə bir almaz.

Mə'dənin, mənbəyin, füyuzun var,
Hələ bakir qalan künuzun var.*

Göylərin pak, yerlərin fəyyaz,
Mötədildir havaların qış-yaz.

Xameyi-qüdrətin gözəl əsəri,
Məxzəni-fitrətin – işıq göhəri.

Axıyor hər yerində abi-həyat;
Nurlu Qafqaz, nə yerdədir züləmat?!

Dağlarındır mənabeyi-ənhar,
Bağlarındır səhayifi-əzhar!

Ərimiş bir gümüş kimi abın;
Şe'rzadır ləyali-mehtabın!

Lövheyi-dilfüruzi-dünyasan!
Sən təbiət yerində hüsnasan!

Sən ki, ənmuzəci-lətafətsən,
Mənbeyi-rövnəqü-təravətsən!

Çox gözəldir baharın, əzharın!
Səni dərk etməyir sənin yarın!

Ey olan həmvüsalı ağyarın,
Sübhü vardır bu leyleyitarın.

Səni bir gün çocuqların biləcək,
İştə bir söz ki, doğrudur, gerçək.

Hələ cahildir ah... övladın
Çox da əndərdir əhli-irşadın.

Səni görməkliyə nəzər lazım,
Səni idrak üçün də sər lazım.

Hələ bizlərdə yox o sər, o nəzər,
Bizə sən küskün olma, ey madər!

*Əbdülsəlimzadə Məhəmməd Hadi*

*Üstad Əkrəm Rəcaizadə mərhum "Qafiyə bəsirəyə [gözə] deyil, samiəyə [qulağa] aiddir" demişdir. Binaileyh [ona görə], "füyuz" ilə "künuz" qafiyə ola bilər.

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycan Milli Şurasında**

Bugün təşrini-saninin [noyabrın] 20-sində, gündüz saat 12-də Milli Şuranın iclası münəqid olacaqdır [baş tutacaqdır]. Ümum əzanın [bütün üzvlərin] vaxtimüəyyəndə [müəyyən edilmiş vaxtda] təşrif gətirmələri rica olunur.

**Atışma**

Keçən gün təşrini-saninin 18-ində, gündüz saat 2-də Vorontsovski və Qubernski küçələrin küncündə vaqe olan [baş tutan] atışmada bir nəfər erməni dəlləyi ilə şagirdi naqafil [qəfil] güllədən qətl edilmişlərdir. Polisiyyənin etdiyi təhqiqata görə bu hadisə böylə olmuşdur:

Bir neçə nəfər dürüst [tamamilə] sərxoş kazak Parapetdə şuluq salıb dolaşdıqları halda Parapetdə olan aşbazxanaların birinin şüşəsini sındırmışlardır. Bir azdan sonra Vorontsovski küçəyə tərəf iti çarpmaqda olan iki faytonun birindən bir güllə atılmışdır. Bu faytonlarda da sərxoş kazaklar varmış. Bu güllədən heç kəs mütəzərrir olmamışdır [ziyan görməmişdir]. Faytonlar qaradavoylar tərəfindən dayandırılmışdır. Bu hində [bu vaxt] faytonlarda olan beş nəfər sərxoş kazak yerə enib qaradavoylara atəş açmışlar. Qaradavoylar ətrafa qaçıb fit verməklə kömək çağırmışlar. Qaradavoyların səsinə kömək gəldikdə, kazaklar faytonlara minib qaçıb gizlənmişlərdir. Bu atışma əhali arasında böyük həyəcana bais olmuşdur. Ətrafda olan dükanlar dərhal qapanmışdır. Atışma haqqında təhqiqat davam edir.

* * *

* Əsgəri məmurların binagüzarlığına [sərəncamına] görə, hamı içki satan dükanlar müvəqqtən qapadılmışdır.

* "Yupiter" paroxodu ilə Sentrokaspi və Müvəqqət İcra Komitəsi üzvlərindən Sadovski, Buşev, Yermakov, Umanski, Saakyan, Arakelyan, Nacarov və qeyriləri Bakıya gəlmişlərdir.

* Şəhər təxliyə edildiyi zaman aparılmış olan dövlət bankı, "Evelina" paroxodunda Bakıya gətirilmişdir.

* Sənaət şöbəsinin müdiri Əhmədovun məruzəsinə görə, Ticarət və Sənaət Nəzarəti [Ticarət və Sənaye Nazirliyi] Tağıyev fabrikasında hazırlanan ağı [bezi] Mərkəzi Ev Komitəsi kooperatsiya və qeyri [digər] ictimai təşkilatlar vasitəsilə əhali arasında təqsim etməyi [paylamağı] qərara almışdır.

* Bakı Realnı məktəbində və Bakı Ünas gimnaziyasında təşrini-saninin 19-unda başlayıb təhsilə davam edən və təzə daxil olmaq istəyən mütəallim və mütəallimələr [oğlan və qız şagirdlər] qəbul ediləcəkdir. Təşrini-saninin 21-ində təcrübə imtahanları başlanacaqdır. İmtahanların föhrüstü [cədvəli] məzkur [adı çəkilən] məktəb dəftərxanalarında elan edilmişdir. Dərslər təşrini-saninin 25-indən başlanacaqdır.

* Azərbaycan Milli Şurasının birinci iclasında Şura sədri naminə Bakıda olan polyak təşkilatları heyəti-rəyasətindən böylə bir teleqraf alınmışdır:

*"Bakıda olan polyak təşkilatlarının heyəti-rəyasəti Azərbaycan Cümhuriyyətinin açılmış olan Milli Şurasını təbrik edib, Azərbaycan Cümhuriyyəti üçün müstəqil və siyasi həyat bərpası ilə mədəniyyətcə nəşvünüma [tərəqqi] etməsini arzu edir."*

## TEATRO VƏ MUSİQİ

Hökumət teatrosunda cümə günü, təşrini-saninin 22-sinə (noyabrın 9-una) təyin edilən "Vətən" draması bəzi səbəblərdən dolayı oynanmayıb, onun əvəzinə "Bəxtsiz cavan" faciəsi ilə "Pulsuzluq" komediyası mövqeyi-tamaşaya qoyulacaqdır. Biletlər hər gün teatrın kassasında satılmaqdadır. "Vətən" teatrosu üçün alınan biletlərlə bu tamaşaya gəlmək olar.

*Hacıbəyli Qardaşları müdiriyyəti*

## GÜRCÜSTANDA

- Ədliyyə naziri Tiflis nahiyə məhkəməsinin müddəi-ümumisinə [prokuroruna] təklif etmişdir ki, Gürcüstanın istiqlaliyyəti əleyhinə və qaçqınlar məsələsi haqqında məqalələr dərc edən qəzetə müdirləri cinayət məhkəməsi tərəfindən təqib edilsinlər.

- Hərbiyyə nazirinin binagüzarlığına [sərəncamına] görə, Batuma ancaq Hərbiyyə nazirinin öz imzası ilə şəhadətnaməsi olan adamlar buraxılacaqlardır.

- Gürcüstanda olan erməni siyasi nümayəndəsi Camalyan Gürcüstan Xariciyyə nazirinə bir məktub göndərib, erməni camaat xadimlərinin evləri axtarıldığı zaman onların ehtiramı saxlanmasını xahiş etmişdir.

- Tiflisdə olan erməni siyasi heyətinin sualına Gürcüstan Hökuməti cavab vermişdir ki, əhalinin tərksilah edilməsi haqqında verilən binagüzarlıq [sərəncam] erməni siyasi heyəti nəzdində olanlardan başqa, qalan erməni zabitlərinə də şamildir.

- Gürcüstan dəmiryolları naçalniki böylə bir binagüzarlıq vermişdir: General-qubernator Karalovun əmrinə görə dəmiryol xətlərində və Poti limanında teleqraf və telefonda qulluq işləri danışığı ancaq gürcü və rus dili olmalıdır.

**Kaxetiya nefti**

Kaxetiyada İldokan adlı yerdə çıxarılan neft yandırmağa yarar görünmüşdür. Bu neftin bir namüsaidliyi vardır ki, o da hər saat yarım-iki saatdan bir lampa fitilinin başını kəsmək lazım gəlir. Bu neft şəhərdə Suraxanı nefti adı ilə girvənkəsi beş manatdan satılmaqdadır.

**Qaçqınlar məsələsi**

Təşrini-saninin 12-sində Arqutinski və Erzikyan bir para məsələləri aşkar etməkdən ötrü Hökumət sədri Jordaniya nəzdində [yanında] bulunmuşlardır. Nəticə də bundan ibarət olmuşdur ki, hərgah on günün müddətində qaçqınlar məsələsi qəti surətdə həll edilməsə Hökumət onları Gürcüstan dairəsində yerləşdirib Tsalka, Bakuriani, Borjomi və Manqlisidə boş qalmış olan əsgəri binaları qaçqınlara vagüzar edəcəkdir [istifadəsinə verəcəkdir]. Bu yerlərdə lazım gələn müsaid mənzil həcz [müsadirə] etməkdən ötrü Hökumət nümayəndələri ilə Milli Şura nümayəndələrindən ibarət bir komissiya təşkil ediləcəkdir. Qarsdan və Aleksandropoldan Ermənistana getmək istəyən qaçqınlar Hökumət tərəfindən Qarakilsə[yə] qədər göndəriləcəklərdir. Araba və furqonlarda övdət edən [qayıdan] qaçqınlara da hər cür müavinət [kömək] göstəriləcəkdir.

Jordaniya vəd etmişdir ki doktor Xaçyanın həbsə alınması işi ilə və Qaçqınlar Komitəsinin tələbatı ilə aşina olub, lazım gələn tədbirlər ittixazında bulunacaqdır [tədbirlər görəcəkdir]. Bu məsələlər haqqında Erməni Milli Şurası Maxaradze ilə müzakirata başlamalıdır.

* Gürcüstan Dəmiryol Nəzarəti Tiflisdə olan erməni siyasi heyətinə xəbər vermişdir ki, cənubi dəmiryolları idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə rejim] altında elan edildiyindən, Hərbiyyə nazirinin əmrinə görə, Türkiyə Hökumətinə verilən dəmiryol qatarlarından başqa heç bir qatar Gürcüstan və Ermənistan sərhədindən cənuba buraxılmayacaqlardır. Ermənistan dəmiryol qatarları sərnişinləri qəbul etməkdən ötrü göstərilən mövqeyə gəlməlidirlər.

* Tiflisdə olan alman heyətinin bəyanına görə, Gürcüstanda olan alman əsgərləri belə bir mühüm zamanda öz vətənlərində olmaq arzusu ilə Berlindən cavab alıb-almamağa baxmayaraq, bu yaxınlarda Gürcüstanı tərk edəcəklərdir. Saldatlar bu arzularını öz zabitləri vasitəsilə baş məmura yetirib, nə tərz ilə Almaniyaya gedə biləcəklərini xəbər verməyi xahiş etmişlərdir.

* Tiflisdən xəbər verirlər ki, Djibladzenin sədarəti altında Sosial-Demokrat firqəsinin ictiması [yığıncağı] açılmışdır. Sədrin ictimanı təbrik edici nitqindən sonra heyəti-rəyasətə Çxeidze, ictimaya sədr Lomtatidze və Omiaşvili müavin, Uratadze, Çavçanidze və Tsiskaridze katib intixab edilmişlərdir [seçilmişlər]. Bundan əlavə Jordaniya, Tsereteli və Djibladze ictimaya fəxri sədr seçilmişlərdir. İctima beş gün davam edəcəkdir.

**Berlin Darülfünununun həkimi**
**L. Melkumyans**

Əmrazi-tənasüliyyə [cinsi xəstəliklər] və dəri naxoşlarını qəbul edir. Qan damarlarına "606" və "916" dəvalarını istemal [tətbiq] edir. Hər gün saat 2-4-ə kimi.

Ünvan Birjevoy caddədə Malakan bağçası qarşısında həkim Temirxanyanın müalicəxanasında. Telefon nömrələri 29-85 və 32-77.

*255*

**Doktor Krinski**

Sifilis, əmrazi-tənasüliyyə [zöhrəvi xəstəliklər] və cild mərəzinə mübtəla olanları qəbul etməyə başlamışdır. Səhər saat 9-dan 12-yə kimi; axşam saat 4-dən 7-yə kimi. Ünvan: Tarqovı caddədə Tağıyev qardaşlarının 10 nömrəli evində. Telefon 15-59.

*263*

**Diş müalicəxanası**
**S.M. İtkinin süni diş laboratoriyası**

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Marskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

*208*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Doktor F. S. Şteyn**

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

*232*

**Arvad diş həkimi Moiseyeva-Levin**

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır. Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

*216*

**Diş təbibəsi Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qəzetələrdən***

"Yapon qoşunları artıq Baykal gölünün bərisinə keçmişlərdir.": Rusiyada Vətəndaş müharibəsi dövründə Antanta qoşunlarının xarici hərbi müdaxiləsinə Japoniya da 72 min hərbçi ilə qoşulmuşdu.

***Krımda***

"Yaşıl kitab": Ayrı-ayrı ölkələrin siyasi yaxud diplomatik sənədləri cildləri müxtəlif rənglərdə olan kitablarda toplayarak nəşr etməsi adəti xüsusilə Avropa üçün xarakterikdir. Bu adət XVII əsrdə İngiltərədə Parlamentə təqdim edilməsi nəzərdə tutulan rəsmi sənədlərin Mavi kitablarda toplanması ilə başlamışdır.

***İmla məsələsi***

"Böylə ki, şairlər, ədiblər deyil, təbiət və müsəvvərat [təsəvvürlər] müqəllid [təqlidçi] sanılırlar.": Bu cümlə belə başa düşülməlidir: "Şair və ədiblərin təsvirləri o qədər realistdir ki, sanki onlar təbiəti təqlid etmir, təbiət onları təqlid edir."

***Türkiyədə qadınlıq məsələsi***

"Üfürükçü": guya dua yaxud cadu oxuyub üfürərək xəstələri sağaltdığına inanılan şəxs.

***Ağahəsən Mirzəzadə***

"Q. R.": Bu imza Qafur Rəşad Mirzəzadəyə məxsusdur.

***Rəsulzadə Məhəmməd Əmin bəyin konfransı***

"M. H.": Bu imza Hənəfi Zeynallıya məxsusdur.

***Qürbət ellərdə yadi-vətən***

səh. 383. "Binaileyh, "füyuz" ilə "künuz" qafiyə ola bilər.": Klassik ədəbiyyatın qaydalarına görə qafiyə eyni hərflərlə meydana gətirilməlidir. "Füyuz" və "künuz" sözlərinin ərəb əlifbasındakı yazılışında, sondakı "z" hərfləri bir-birindən fərqlidir [ ض və ز ] və bu səbəbdən, bu iki söz həmqafiyə sayılmır. Hadi, türk şairi Rəcaizadə Əkrəmin "qulaq qafiyəsi" haqqındakı sözünü xatırladaraq, "füyuz" və "künuz" sözlərinin qafiyəli olduğunu deyir.

***"Qürbət ellərdə yadi-vətən" şeiri üçün lüğət:***

yadi-vətən: vətənin yad edilməsi
madər: ana
pürqiymət: qiymətli, dəyərli
sərbülənd: başı uca
sərbəsəma: başı göydə, başı göyə çatan
füyuz: bərəkətlər, nemətlər
künuz: xəzinələr
fəyyaz: feyzli, bərəkətli
xameyi-qüdrət: qüdrət qələmi
məxzəni-fitrət: fitrət xəzinəsi
zülümat: zülmətlər, qaranlıqlar
mənabeyi-ənhar: çayların mənbəyi
səhayifi-əzhar: çiçək səhifələri
şe'rza: şeir yaradan, şeir meydana gətirən
ləyali-mehtab: mehtablı gecələr
lövheyi-dilfüruzi-dünya: dünyanın könül aydınladan lövhəsi
hüsna: gözəlliklər; cənnət
ənmuzəci-lətafət: lətafət timsalı
mənbeyi-rövnəqütəravət: rövnəq və təravət mənbəyi
əzhar: çiçəklər
həmvüsal: vüsala çatan
leyleyitar: qaranlıq gecə
əndər: nadir
əhli-irşad: doğru yol əhli; doğru yolu göstərənlər
sər: baş

***Teatro və musiqi***

"Bəxtsiz cavan": Azərbaycan yazıçısı Əbdürrəhim bəy Haqverdiyevin pyesi.

"Pulsuzluq": Rus yazıçısı İvan Turgenyevin pyesi.

# "Misli"nin Azərbaycanda fəaliyyətə başlamasından bir il keçir

**Azərbaycanın qanuni lotereya təşkilatçısı və idman mərc oyunları operatoru "Azərlotereya" ASC-yə məxsus "Misli" brendinin fəaliyyətə başlamasından bir il ötür. 2022-ci ilin 17 yanvarında istifadəyə verilən "Misli" brendi altında məntəqələr və "misli.az" saytı fəaliyyət göstərir.**












"Misli" birillik fəaliyyəti dövründə bir sıra önəmli layihələrə imza atıb. Onların arasında futbol üzrə Azərbaycan Premyer Liqasının (Misli Premyer Liqası - red.) baş sponsorluğunu xüsusi qeyd etmək olar. Daha əvvəl "Bakı Marafonu-2022" və "Goal+ Summer Festival"ın təşkilinə dəstək olan "Misli" futbol üzrə 2022-ci il dünya çempionatının ölkə üzrə yayımının baş sponsoru olub.

Hazırda ölkə ərazisində 180-dən çox "Misli" məntəqəsi fəaliyyət göstərir. Paytaxt Bakıda və regionlarda açılan məntəqələrdə yüzlərlə insan çalışır. Xüsusi konseptual dizaynla bəzədilən, oyunçular üçün həyəcan və şans dolu atmosfer yaradılan bu məntəqələrdə həm idman mərc oyunlarını oynamaq, həm lotereyalar alaraq şanslarını sınamaq, həm də idman yarışlarını canlı izləmək imkanı var.

"Misli.az" saytı və eyniadlı mobil tətbiq isə yüz minlərlə istifadəçiyə daha geniş seçim imkanı təqdim edir. İdman mərc oyunları, virtual idman oyunları, elektron "Poz-Qazan" oyunları, "Ekspres Keno", "Super Keno" kimi lotereya biletlərini də onlayn şəkildə "misli.az"da əldə etmək mümkündür. Bir il ərzində yüz minlərlə istifadəçi "misli.az"da təqdim olunan oyunlarda iştirak edib. Artıq "Binqo" oyununu da "misli.az"da onlayn oynaya bilərsiniz. İllərdir həyəcanla gözlənilən bu oyun qısa müddət əvvəl oyunların siyahısına daxil edilib.

Qeyd edək ki, yaşı 18-dən yuxarı şəxslər həm "Misli" məntəqələrində, həm də "misli.az"da təqdim olunan oyunlarda könüllü şəkildə iştirak edə bilərlər. "Misli.az" veb-saytı ilə bərabər "İOS" "Android" proqram təminatlarını dəstəkləyən telefonlardan "misli.az"a rahat və sürətli şəkildə üzv olub mərc etmək və lotereya oynamaq mümkündür.

Əlavə olaraq, "Misli"nin bir illiyinə həsr olunmuş sürprizlərdən yararlanmaq üçün bu gün "misli.az"ın instaqram və feysbuk hesablarını ziyarət etməyi unutmayın.

*Səbuhi BAYRAMOV,*
*"Azərbaycan"*





# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov İsmayıllı şəhərində vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov yanvarın 30-da saat 10:00-da İsmayıllı şəhərində İsmayıllı və Ağsu rayonlarından olan vətəndaşları qəbul edib. Qəbul "Azərişıq" ASC-nin İsmayıllı Elektrik Şəbəkəsinin inzibati binasında keçirilib.

Qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən baş tutub.



Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin İsmayıllı şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub və əziz xatirəsinə dərin ehtiram ifadə edilib.

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib. Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Öskürəklə müşahidə olunan infeksiya

## Xəstəliyin xroniki hal almaması üçün həkim müayinəsindən keçmək lazımdır

**Payız və qış aylarında havanın dəyişkən olması, hətta mövsümə uyğun temperaturda keçməməsi kəskin respirator virus infeksiyalarının yayılmasına və yoluxanların sayının artmasına səbəb olur. Virus infeksiyaları özünü baş, boğaz və əzələ ağrıları, halsızlıq, yüksək hərarət, burun tıxanıqlığı və öskürək kimi əlamətlərlə büruzə verir.**



Son həftələrdə həkimə müraciət edənlərin əksəriyyəti bitməyən öskürəkdən şikayət edirlər. Öskürək kəskin respirator xəstəliklərin əsas əlaməti hesab edilir və hava-damcı yolu ilə bəzi infeksion faktorların digər şəxslərə yayılmasına səbəb olur. Fizioloji olaraq öskürək orqanizmin yuxarı tənəffüs yollarının qıcıqlanması nəticəsində verdiyi qoruyucu cavabdır. O, ağciyərlərin xaricdən gələn kimyəvi, mexaniki və ya temperatur fərqliliyi yaradan faktorlara qarşı yaranan refleksidir. Bədənin müdafiə mexanizmləri arasında önəmli yer tutan öskürək uzun müddət davam etdikdə isə insanın əmək qabiliyyətini aşağı salır.

Bəs öskürək hansı xəstəliklərin əlamətləridir? Hansı hallarda mütəxəssisə müraciət olunmalıdır?

### Eyni anda bir neçə virusa yoluxma kəskin fəsadlar törədir

Mərkəzi Neftçilər Xəstəxanasının Terapiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru həkim-pulmonoloq Ədalət Abdullayev deyir ki, kəskin respirator virus infeksiyaları əsasən yuxarı tənəffüs yollarını zədələyir: "Bu da öskürəyə, boğaz ağrılarına səbəb olur. Son zamanlar yayılan infeksiyalar aqressiv forma daşıyır. Təəssüflər olsun ki, bunu konkret hansı virusun törətdiyini diferensasiya edə bilmirik. Yüksək ehtimalla bir neçə virusun qarışığı belə kəskin fəsadlar yaradır. Ona görə də adi soyuqdəymə hesab etdiyimiz xəstəliklər belə çox ağır keçir".

Ə.Abdullayev qeyd edir ki, qrip əksəriyyətimizin düşündüyünün əksinə ağır xəstəlikdir: "Dünyanın əksər ölkələrində olduğu kimi, ölkəmizdə də qrip son həftələr artıb. Qripin əsas göstəricisi 39 dərəcə və yuxarı hərarət, möhkəm baş və ümumi bədən ağrıları, bəzən burun tıxanıqlığıdır. Respirator infeksiyalarda isə, əksinə, daha çox burun axmaları, boğaz ağrıları və öskürək özünü göstərir. Bu, diferensasiya üçün önəmlidir".

Pulmonoloq bildirir ki, öskürəyin əmələ gəlməsinin müxtəlif səbəbləri ola bilər: "Tənəffüs yollarının zədələnməsi, ürək-damar problemləri və plevral boşluqda maye yığılması öskürəyə səbəb ola bilər. Eyni zamanda tənəffüs yolları ilə əlaqəsi olmayan reflyüks-ezofagit kimi xəstəliklərdə mədə möhtəviyyətinin yemək borusuna qalxaraq oradan nəfəs yollarına düşməsi də çox kəskin öskürək yarada bilər. Həmçinin beyin təzyiqini və ürək ritmini tənzimləyən bəzi dərmanlar da öskürəyə səbəb olur".

### Müalicə kortəbii olmamalıdır

Son həftələrdə öskürəklə bağlı müraciətlərin artdığını söyləyən Ə.Abdullayev deyir ki, onların böyük əksəriyyəti respirator infeksiyalarla bağlıdır: "Öskürək şikayəti ilə bağlı hər yaşdan olan xəstələr müraciət edirlər. Lakin uşaqlar, yaşlılar, hamilələr və yanaşı xəstəliyi olanlar daha böyük risk altındadırlar. Hətta öskürək bəzən elə kəskinləşir ki, həssas qrupa aid olanlar huşlarını itirirlər".

Pulmonoloq bildirir ki, xəstəlik bitdikdən sonra öskürəyin xroniki hala çevrilməsi yaxşı əlamət deyil: "Xəstəlik bitəndən sonra öskürək dayanmalıdır. Yox, əgər o, bir neçə ay davam edirsə, bu o deməkdir ki, xəstəlik tam müalicə olunmayıb. Yaxud həmin şəxslərdə xroniki xəstəlik var və virus onu kəskinləşdirib. Ümumiyyətlə, hər bir kəskin xəstəlik bir ay müddətində müalicə olunmayanda xroniki formaya keçir. Bunu kəskin fazada müalicə etmək lazımdır".

Ə.Abdullayev onu da xüsusilə vurğuladı ki, öskürəyin səbəbləri çox olduğundan mütləq həmin sahənin mütəxəssisinə müraciət olunmalıdır: "Öncə öskürəyin səbəbi tapılmalıdır. Bundan sonra müalicəni təyin etmək asandır. Lakin səbəbi dəqiqləşdirildikdən sonra kortəbii edilən müalicənin heç bir xeyri yoxdur. Ona görə də səbəb həkim tərəfindən müəyyən olunaraq ona uyğun müalicə aparılmalıdır. Quru öskürək üçün dərmanlar bir qrupdur, bəlğəmli öskürək üçün ayrı. Bəlğəmli öskürəyi olan xəstə əgər aptekdən hər hansı bir bəlğəmgətirici öskürək dərmanı alıb qəbul etsə, bu onun öskürəyini kəsəcək, lakin xəstədə boğulma və təngnəfəslik müşahidə olunacaq. Bu isə daha ağır fəsadlaşmalara səbəb ola bilər".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
balansında olan "Şirvan-2", "Z.Hacıyev" və "Şirvan" kran gəmilərinin Deutz BF6M1015MC köməkçi mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədilə
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 09 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071**

***Tender komissiyası***



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
balansında olan "Şəki" bərə gəmisinin MAN 6K45GFCA baş mühərrikinin ehtiyat hissələrinin satın alınması məqsədi ilə
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 08 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071**

***Tender komissiyası***


# ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Azərbaycan Respublikasının İrandakı səfirliyinə silahlı hücum zamanı səfirlik əməkdaşı

**ORXAN RİZVAN OĞLU ƏSGƏROVUN**

şəhid olmasından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Baş nazirin sabiq müavini

**ƏSGƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikasının İrandakı səfirliyinə silahlı hücum zamanı səfirlik əməkdaşı

**ORXAN RİZVAN OĞLU ƏSGƏROVUN**

şəhid olmasından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Azərbaycan Respublikasının İrandakı səfirliyinə silahlı hücum zamanı səfirlik əməkdaşı

**ORXAN RİZVAN OĞLU ƏSGƏROVUN**

şəhid olmasından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Bakı şəhər prokurorluğunun Prokurorluqda istintaqa nəzarət şöbəsinin prokuroru Vaqif Süleymanova atası

**İSMAYIL MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının İrandakı səfirliyinə silahlı hücum zamanı səfirlik əməkdaşı

**ORXAN RİZVAN OĞLU ƏSGƏROVUN**

şəhid olmasından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Problemli Kreditlərlə İş Departamentinin direktoru Rəşid Məmmədova qardaşı

**MÜBARİZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
balansında olan "Professor Gül" və "Merkuri-1" bərə gəmilərinin MAN 6T23LH köməkçi mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədi ilə
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 10 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071**

***Tender komissiyası***



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" Nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4975**
**Sifariş 249**

**Qiyməti 40 qəpik**